

"Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olmuşdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır".

Heydər ƏLİYEV

# HEYDƏR ƏLİYEV VƏ REPRESSİYA ƏDƏBİYYATI

Bu gün biz titanik fəaliyyəti ilə dünyanın ən nəhəng siyasətçiləri ilə bir arada özünə əbədilik yer alan, tarixdə Böyük Azərbaycanlı kimi hər zaman yaşayan, adı Azərbaycanın, bütövlükdə Türk dünyasının tarixinə qızıl hərflərlə yazılan Heydər Əliyevdən, Heydər Əliyev fenomenindən, Heydər Əliyev bənzərsizliyindən, Heydər Əliyev dahiliyindən hələ çox danışacağıq. Belə dahilər hər əsrin, hər xalqın bəxtinə düşmür. Bu gün həm də bu dahinin Azərbaycanın digər bir dahi sənətkarına, Hüseyn Cavidə verdiyi yüksək dəyərdən, ona bəxş etdiyi ikinci ömürdən bəhs etmək istəyirəm.

Hər bir milləti millət kimi saxlayan, var edən onun dili, ədəbiyyatı, tarixi və ənənələridir. Buna görə ümummilli lider Heydər Əliyev əsərlərində milli dəyərlərimizi əks etdirən, qoruyan və təbliğ edən sənətkarlara, onların əsərlərinə yüksək qiymət verir, milli dəyərlərimizin keşikçisi olan ədəbiyyatı milli ədəbi xəzinəmizin gözəl inciləri kimi qorumağı lazım bilirdi. Ümummilli lider bununla bağlı fikirlərini belə ifadə edirdi: "Çoxəsrlik tariximizdə xalqımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır". Heydər Əliyev ədəbiyyat və mədəniyyətin inkişaf etdirilmə işinə milli siyasət konsepsiyasından yanaşırdı.

Heydər Əliyev belə bir fakta diqqəti cəlb edirirdi ki, uzun müddət bizim rəsmi ideologiya köklərimizin qədim türk tarixinə, türk millətinə mənsubluğundan danışmağa yasaq qoyulmuşdur. "Tarixi təhrif edənlər adamlarımızı bu tarixi kökdən məhrum etmişlər. Bu cür yasaq və qadağalara məhəl qoymayan dahi Hüseyn Cavidə pantürkist damğası vurularaq o, həbs edilmiş, Sibirin şaxtasında həlak olmuşdur"

*(B.Nəbiyev. "Heydər Əliyev haqqında etüdlər". Bakı:2007.s 109.)*

XX əsrin 20-30-cu illərində bir sıra müsəlman-türk respublikaları ilə yanaşı, Azərbaycanda da bolşevizmin hökm-fərman olması ilə "pantürkizm", "panislamizm" təhlükəsinə qarşı mübarizə aparılırdı. Bu mənada Yaxın və Orta Şərq ölkələri içərisində sosial-iqtisadi, elmi-mədəni inkişafı ilə seçilən, qabaqcıl ideyaların, mütərəqqi hərəkatların meydana çıxması üçün münbit zəmin ola bilən Azərbaycan Qafqaz regionunda birinci hədəfdə idi. Buna görə də 1937-38-ci illərin sovet repressiyasında ən çox qanlı yaralar alan məhz Azərbaycan olmuşdur. Mədəniyyət və incəsənət sahəsində proletkultçuluğu və sosialist realizmi yaradıcılıq metodunu əldə bayraq edən marksist-leninçi estetika və tənqid tarixi keçmiş və soy-köklə bağlılığı nəzərdə tutan hər cür münasibətin üstündən qara xətt çəkməyə hazır idi. Bu isə Azərbaycan xalqının ən azı minillik qədim və zəngin ədəbiyyatını öz kökündən qoparmaq, onun mövcudluq və inkişafını sinfi-siyasi mövqedən olmaqla yalnız və yalnız qondarma proletar mədəniyyətinə və sovet ədəbiyyatına bağlamaq məqsədi güdürdü. Bolşeviklər həyatda və sənətdə sosialist inqilabını başa çatdırmaq üçün şüur və psixologiyalarda maarifçi və tənqidi realizmdən fərqli olaraq yeni bir "izm" - sosialist realizmi modeli, qəlibi yaratdılar. "Proletariat diktaturası sənətkardan da sosialist realizminə sadiq qalmağı tələb etdi və bu doktrina getdikcə ideoloji buxova çevrilməyə başladı. Belə bir cəmiyyətdə doğrudan da, azad ədəbiyyat yaratmaq qəhrəmanlıq idi. Ancaq nə qədər mənəvi təqiblər, siyasi vahimə davam edilsə də, o mənəvi təqiblər, o siyasi vahimələr fövqündə duran azad ədəbiyyat bir boy ucalıb.

Səməd Vurğun Azərbaycan xalqının qəddar düşməni Kobanın (Stalinin) "mərd obrazları"nı yaradıb, Şaumyanı da mədh etməyi unutmayıb, "bizi ağ günlərə çıxaran" zamanın bayraqdarına-Kommunist partiyasına da poema yazıb. "Vaqif" kimi bənzərsiz əsər də onun qələmindən çıxıb, onlarca siyasətdən uzaq lirik-fəlsəfi şeirləri də. Süleyman Rüstəm "Ələmdən-nəşəyə" də yazıb, yüzdən çox partiyalı mədhiyyələr də. Amma xalqın taleyi ilə bağlı "Cənub şeirləri"ni də Süleyman Rüstəm yazmışdır. Rəsul Rza kimi istedadlı bir sənətkar da bu inamdan xilas ola bilməyib. Görəsən, Stalin mükafatına layiq görülən "Lenin" poeması yaşayacaq, yoxsa "Rənglər silsiləsi" və ya "Rekviyem" tipli şeirlər? *(Yusifli V. Karvanbaşı, yolun hayanadır. Bakı: Gənclik.1998, s.7-8).*

Maarifçi və tənqidi realizmlər ədəbiyyatın, sənətin içindən doğan, ictimai quruluşun eybəcərliklərini tənqid edən, "baltanı dibindən vuran" (Ü.Hacıbəyov) ədəbi cərəyanlar idi. Sosialist realizmi isə əslində siyasi cərəyan idi.

İlk dəfə 1932-ci ildə ortaya atılmış sosialist realizmi termini milli ədəbiyyatşünaslıqda 1933-cü ildə, Azərbaycan Sovet Yazıçıları cəmiyyətinin plenumunda H.Nəzərlinin məruzəsində işlədilmişdir. 1934-cü ildə isə bu metod sovet yazıçılarının Ümumittifaq qurultayında sovet ədəbiyyatının başlıca metodu elan edilmiş, elə oradaca ayrı-ayrı məruzə və çıxışlarda sosialist realizminin prinsipləri müəyyənləşdirilmişdir. Ən uyarlısı-sovet həqiqətinə uyğun ad sosialist realizmi idi ***(Nüşabə Hüseynova. Azərbaycan ədəbiyyatşünaslığında sosialist realizmi probleminin qoyuluşu. B.2008.N2).***

Sovet bədii ədəbiyyatının və sovet tənqidinin əsas metodu olaraq sosialist realizmi sənətkardan gerçəkliyi inqilabi inkişafda doğru və tarixi konkretliyi ilə təsvir etməyi tələb edir. Burada bədii təsvirin həqiqiliyi və tarixi konkretliyi zəhmətkeşləri sosialist ideyaları ruhunda dəyişdirib tərbiyə etmək vəzifəsi ilə uyğunlaşmalıdır. Sosialist realizmi bədii yaradıcılığa geniş təşəbbüskarlıq göstərmək üçün müxtəlif formalar, üsullar, janrlar seçmək üçün fövqəladə imkan verir ***(Rus ədəbiyyatı tarixi. B.Maarif,1976.s.110).*** Bu həqiqətən də belə idi, çünki bu dövrdə ədəbiyyat və sənət, Leninin dediyi kimi, proletar işinin "vintciyi", "təkərciyi" funksiyasını yerinə yetirir və partiyanın siyasətini bir mexanizm kimi hərəkətə gətirirdi. Maraqlıdır ki, əvvəlki sənət nümunələri də sosialist realizmi modelinə uyğunlaşdırılır, bu qəlibə uymayanlar isə məhv edilirdi. Lakin bütün bunları həyata keçirmək o demək deyil ki, maneəsiz və qurbansız nail olur, heç bir sosial, ictimai, subyektiv maneəyə rast gəlmirdilər. Əksinə, bu "qırmızı terror"a qarşı mübarizə aparan Azərbaycanın mərd və əyilməz oğulları da az deyildir və bu oğullar 30-cu illərin repressiya burulğanından yaxa qurtara bilmədilər. Belə şəxsiyyətlərdən biri də "Heç zaman sənətkar vicdanına xəyanət etməyən", öz yaradıcılığı ilə çoxəsrlik milli şeirimizin, dramaturgiyamızın zənginləşməsində xüsusi rol oynamış Cavid əfəndi idi.

Cavid əfəndi hər zaman, həyatda və yaradıcılıqda da sözün əsl mənasında əfəndi idi. Məhz buna görə də həmişəyaşar və ecazkar Cavid sənəti hər zaman romantik sənətin və fəlsəfi şeirin yaşamında misilsiz rol oynayır. Cavid hər zaman xalqının milli yaddaşından və klassik söz xəzinəsindən güc alan, vətəninə, xalqına, ümumiyyətlə, insanlığa xidmət üçün çalışan sənətkar olmuşdur. "Sənət sənət üçündür" nəzəriyyəsi ilə yazıb-yaratmış, həmişə sənətdə yaradıcılıq azadlığı ideyasını müdafiə etmiş, ədəbiyyata mənəvi tərbiyənin ən əlverişli, düzgün vasitəsi kimi baxmış Hüseyn Cavid haqqında1923-cü ildə mətbuatda gedən yazıların birində yazılır: "Hələ tarix Hüseyn Cavidə əl vurmayıbdır. Şairimiz bir tərəfdə oturub əsərlərini yazır. Tarix isə qulaq asır və gözləyir". Cavid bir tərəfdə oturub şedevr əsərlərini yaradır, tənqidçilər Hüseyn Cavidin yazdıqlarına tənqidi yazılarla cavab verir, onu "köhnə mövzu"lara müraciət etməkdə günahlandırırdılar. Hənəfi Zeynallı məqalələrinin birində yazırdı: "Cavid bir "Şeyx Sənan" yazar, bir "Peyğəmbər" yaratmağa qeyrət edər, bəlkə də şimdi bir Çingiz, yarın bir İsgəndər, ertəsi gün də bir Lenin diriltməyə can atacaqdır". Tənqidçilər belə düşünürdülər, lakin Cavid nədən yazdığını bilirdi. Cavid böyük bir uzaqgörənliklə bunu belə ifadə edirdi: "Nədən yazmağın məsuliyyətini həmişə yadda saxlamaq lazımdır ki, beşgünlük olmasın. Yazının tərzi, vaxtı ötəndən sonra köhnə görünə bilər. Bu qorxulu deyil. Qorxulusu odur ki, mövzuların günün hay-küyü ilə bağlı olsun və hay-küy yatan kimi də unudulsun. Məsələn baxın, indi Çay-Kay Şidən yazırlar, şeir də həsr eləyirlər ona. Ancaq görərsiniz; çox keçməyəcək ki, o yazıların çap olduğu qəzet-jurnalın vərəqləri yalnız əl silməyə yarayacaqdır".

Cavid köhnəni təkrar etmirdi, köhnə mövzulara -yeni ruh, yeni nəfəs verir, hər yeni pyesi ilə tamaşaçıların sonsuz rəğbətini qazanırdısa da, yeni ictimai quruluşun ruporlarını razı sala bilmədi. Bəşərin İblisə uyduğu, hər gün yüzlərlə insanın güllələndiyi, sürgünə göndərildiyi, qapılara qara qıfıllar asıldığı, Cavidin bəlkə də gündə yüz dəfə heyrətlə beynindən "İblisəmi uymuş bəşəriyyət?!" fikrini keçirdiyi, hər yerindən duranın Cavidin anladı-anlamadı dilini, üslubunu tənqid etdiyi bu illərdə qaragüruh niyyətlərinə nail oldu. Onu da 1937-ci il repressiyasının qurbanları siyahısına saldı. Belə bir zamanda çağrılan K(b)P-nın XIII qurultayında ölkə rəhbəri M.C.Bağırov hesabat məruzəsində deyirdi: "Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdi. Hazırda ifşa olunmuş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Trinci kimiləri"... M.C.Bağırovun hazırda ifşa olunmuş dediyi Cavidi 1937-ci ilin 4 iyun gecəsində ailəsindən, çox sevdiyi Müşgünazından, Turanından, Ərtoğrulundan ayıraraq çox-çox uzaqlara, şaxtalı-buzlu Sibirə-Tayşetə sürgün etdilər, elə orada da dünyasını dəyişdi, torpağa qovuşdu. Hər zaman Şərə qarşı olan, Şəri lənətləyərək insanları sülhə, humanizmə, gözəlliyə və məhəbbətə səsləyən Cavid özü Şərin qurbanı oldu. Cavid 59 yaşında ailəsindən çox-çox uzaqlarda, Uzaq Sibirdə 21 № Əlillər xəstəxanasında, yad torpaqlarda 1941-ci il 5 dekabrda saat 10:30-da vəfat etdi, 59 nömrəli məzara gömüldü, düz 59 ildən sonra vətəninə gətirildi *(Heydər Əliyev və Turan Cavid bu zaman 59 yaşında idilər).*

Heydər Əliyev Cavidin ibrətamiz həyat yolundan və dərindən bələd olduğu əsərlərindən gətirdiyi nümunələrlə əsaslandırırdı ki, bu ölməz sənətkarın yaratdıqları Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıb. Ədib həmişə öz iradəsi ilə yaşamış, öz xalqına sadiq olmuşdur. H.Əliyev əsl vətənpərvər bir şəxsiyyət kimi barışa bilmirdi ki, əzab və işgəncələrə məruz qalmış Hüseyn Cavidin qərib məzarı Uzaq Sibirdə on minlərlə günahsız, lakin həm də kimsəsiz əzabkeşin məzarı kimi baxımsız qalsın. Buna görə də ümummilli lider 1982-ci ildə, o zaman SSRİ də analoqu olmayan, böyük iradə və məsuliyyət tələb edən tarixi bir qərar qəbul etdi. Təkcə özünün yox, Azərbaycanın taleyini yaşayan Cavidin sonrakı taleyində böyük şəxsiyyət Heydər Əliyevin imzaladığı qərarlar mühüm rol oynadı. Ədibin cənazəsi "Sibir mədənləri dərinliyindəki katorqa məzarlığından" Azərbaycana gətirildi, doğulub-böyüdüyü Naxçıvanda torpağa verildi. Üzərində məqbərə tikildi. Bu məqbərənin təntənəli açılışında H.Əliyev deyirdi: "Cavidin cənazəsini Uzaq Sibirdən gətirmək asan iş deyildir. Bu böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, ədəbiyyatımıza, mədəniyyətimizə, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim" ***(Ədəbiyyatın yüksək amalı və borcu.Ozan.2000.).***

Bir vaxtlar qurultayda çıxış edərkən Cavidi "hazırda ifşa edilmiş" adlandıran M.C.Bağırova sanki cavab olaraq Azərbaycan xalqının böyük şəxsiyyəti, ədəbiyyatımızın və mədəniyyətimizin himayədarı, Cavid sənətinə əsl qiymət verən ümummilli lider Heydər Əliyev deyirdi: "Vaxt var idi ki, Hüseyn Cavidi həbs etdilər. Və onun bütün əsərlərini qadağan etdilər.

Hüseyn Cavid həbs olunandan sonra onu millətçi, pantürkist, panislamist, antisovet adam adlandırırdılar. Amma Hüseyn Cavidin əsərləri yaşadı. Çünki Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olmuşdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşayıb, öz iradəsinə, millətinə sadiq, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həd-





M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

dindən artıq xidmət edən bir insan olmuşdur".

Yalnız bundan sonra - Heydər Əliyevin Hüseyn Cavidə verdiyi böyük dəyər və qiymətdən sonra şairin bənzərsiz irsinin əsl qiymətini vermək, onu xalqına qaytarmaq üçün bir sıra işlər görüldü. Paytaxt Bakıda və doğulduğu Naxçıvan torpağında ev-muzeyləri yaradıldı. Bakı şəhərində monumental heykəli ucaldıldı, əsərləri çap olundu, pyesləri üzərindən qadağalar götürüldü, teatr səhnələrində tamaşaları qoyuldu. Cavidin qızı Turan xanımın da dediyi kimi, Cavidə əsl bəraəti dahi şəxsiyyət Heydər Əliyev verdi. Bunu Turan xanım da xatirələrində təsdiq edir: "Atama əsl bəraəti 1981-ci ilin iyun ayında Heydər Əliyevin imzaladığı qərardan sonra hesab edirəm. Bu ədalətin zəfər çalması idi və mən bunun üçün, ilk növbədə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevə minnətdaram".

Stalin repressiyasının milyonlarla qurbanı olmuşdur. Milyonlarla günahsız insan bu repressiya maşınında məhv edilmişdi. Bu milyonlardan yalnız birinin məzarı tapılıb öz vətəninə qaytarıldı ki, bunun da təşəbbüskarı, hələ kommunist rejiminin tüğyan etdiyi vaxtda cənab Heydər Əliyev idi. Həmin hadisə elmi fikirdə yüksək qiymətini almışdır. 1992-ci ildə ABŞ-da "Azərbaycan türkləri" adlı zəngin qaynaqlara əsaslanan fundamental monoqrafiya çap etdirmiş tarixçi-alim Odri Aldstadt kitabının "Azərbaycanda Heydər Əliyev erası" adlı fəslində Azərbaycanın KP MK-nin o zamankı birinci katibinin təşəbbüsü ilə Cavidin cənazəsinin Uzaq Sibirdən Azərbaycana gətirilməsini ölkədəki müstəqillik arzularının və milli-azadlıq hərəkatının başlanğıc nöqtəsi kimi səciyyələndirilir". Doğrudan da bu belə idi.

Cavid məqbərəsinin açılışında iştirak edən professor Yaşar Qarayev isə bunu belə dəyərləndirirdi: "Şərqdə türbələri, məqbərələri iki cür tikmişlər. Şairlər sözdən məqbərə tikmişlər. Dövlət rəhbərləri, siyasət ərləri həmin məqbərələri sonralar qranitdən, qaya parçasından tikmişlər. Şərqdə mədəniyyət o zaman çiçəklənib, ədəbiyyat, sənət o zaman pərvaz tapıb ki, dövlət ərləri ilə söz öndərləri arasında münasibət bu məcrada inkişaf edib.

Kamillik, bütövlük belə bir vəhdətdən yaranır. Bu gün mən bu məbədə baxıram. Bir məbəd yox, iki məbəd görürəm, bir memar yox, iki memar-böyük mənəvi bir mənada görürəm". Bu məbədin mənəvi memarı Azərbaycanın böyük oğlu Heydər Əliyev idi.

Deyirik ki, Cavidin həyatı yazdığı faciələrdən faciəli oldu. "Faciə isə ancaq məni, ruhu olanların və bu ruh uğrunda mübarizə aparanların qismətidir!" (S.Xəlilov) Cavid də ruhu və məni olan insan idi. Cavid sanki öz başına gələnləri peyğəmbərcəsinə bir uzaqgörənliklə öncədən duyurmuş kimi "Topal Teymur" əsərində deyirdi: "Çal bəxtiyar çoban, çal! Nə Sivas kimi şəhrin əldən getmiş, nə Ərtoğrul kimi oğlun!". Cavid oğlu Ərtoğrulun faciəli taleyini hələ illər öncə duymuşmuydu və ya Xəyyamın Sevdanın qəbri üstündə gözünə görünən Sevdanın teyfindən ürkməsi səhnəsindəki deyilən sözlər: "Səni ürkütdümü halım, keçmişdə hayır, böylə deyildim"... Sanki bu sözlər bir də Cavidin yad torpaqda uyuduğu məzarından sümüklərini yığan Zakir Nəsirova, Telman Əliyevə, kəllə sümüyünü əlinə alıb torpağını silib öpən Həmid Cəfərova Cavid ruhu tərəfindən pıçıldanmışdı: "Səni ürkütdümü halım, keçmişdə hayır, böylə deyildim". Şairin cənazəsinin vətənə gətirilməsində böyük əməyi olan Həmid Cəfərov o günləri xatırlayarkən deyir: "Elə kəllə hissəsini mənə verəndə əziz bir şeyimi tapmış kimi torpağını əllə silib öpdüm, onun günahsız-sübutsuz qərib torpaqda çürüyən alnından".

Həqiqətən də, nəydi Cavidin günahı? Vətənini, xalqını canından çox sevməkmi? Millətinə, xalqına, dininə-imanına sadiq olmaqmı? Sənətkar vicdanına xəyanət edə bilməməkmi? "Günahsız"dı "qərib torpaqda çürüyən" Cavid.

"Tükəndi səbrü -qərarım, ah ədalət, ədalət"- deyə yalnız ədalət arzusunda olan, ədalət prinsipini özünə məram seçən, "bütün yaradıcılığı, xüsusən bütöv dramaturgiyası ilə ədalət dramının mücahid yazıçısı". Hüseyn Cavid hər zaman ədalətin var olduğuna və qələbəsinə inanmışdı. Bu baxımdan onun Vətənə möhtəşəm qayıdışı da ədalətin var olması idi.

Ümumiyyətlə, Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Dünyada məşhur siyasətçi və dahi şəxsiyyət olaraq tarixin yaddaşında qalan Heydər Əliyev Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Bu gün hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının zərrəsi var.

Belə bir söz var, deyirlər: "Dünya bir pəncərədir, hər gələn baxar, gedər". Bu həyatın fəlsəfəsidir. Lakin o da var ki, bu pəncərə dünyadan baxıb gedən də var, özünə əbədilik qazanan, əbədi qalan da var. Hər zaman əbədi olan isə dahilərdir.